# PLATON

# DÖVLƏT

Tərcüməçi:
Araz Gündüz

qanun nəşriyyatı

Πλάτων

# Πολιτεία

Tarixi gerçəkləri və yaşadığı dövrü araşdıran əsər ideal dövlət axtarışındadır. O, başlıca meyar olaraq ədalətliliyi götürür; ictimai fikir tarixində ilk dəfə əmək bölgüsünün yeri və rolundan söz açır. Dövlət idarəçiliyinin bu bölgüdə layiqincə təmsil edilməsi zərurətini göstərir. İnsan psixologiyası ilə ictimai hadisələr arasındakı əlaqələrdən danışır. Dövlət quruluşlarının təbiəti ilə insanın mənəvi xüsusiyyətləri arasında uyğunluğa əyani misallar gətirir. Poeziyanın, incəsənətin, həmçinin fəlsəfənin dövlət həyatında yeri və rolu barədə danışır. Sokrat ilə yaxın tanışlarının dialoqu şəklində qurulmuş əsər cəlbedici bədii üslubda qələmə alınıb. Süjet oxucunu gərginlikdə saxlayır və yalnız oxumağa deyil, həm də qoyulan suallar üzərində düşünməyə sövq edir.

**Πλάτων  Πολιτεία**
**Platon  Dövlət**
Bakı, Qanun Nəşriyyatı, 2024, 448 səh.

Janr: non-fiction/fəlsəfə
Ölçü: 145x210 mm
Cild: qalın
Çapa imzalandı: 15.03.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Araz Gündüz |
| Redaktor: | Əyyar Tahir |
| Korrektor: | Əyyar Tahir |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Pərvanə Şahin |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-540-3

© Qanun Nəşriyyatı, 2024

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu"na ziddir.

# ÖN SÖZ

Bizim eradan öncə 428–348-ci illər arasında yaşamış dahi yunan filosofu Platon (Πλάτων) Qədim Yunanıstanın Afina fəlsəfi məktəbinin görkəmli nümayəndələrindən biri kimi tanınır. Antik yunan filosofu Laertli Diogenin bildirdiyinə görə, Platonun gerçək adı Aristokl olmuş (Ἀριστοκλῆς, qədim yunancada "ən böyük şöhrət sahibi" mənasını verir), Platon ləqəbini isə ona gimnastika müəllimi Arqoslu Ariston vermişdir. Qədim yunan dilində "enli-geniş" mənasını verən "πλατύς" ləqəbinin Platona, geniş çiyinli və iri cüssəli olduğu üçün verildiyi deyilir. Həmçinin, Platonun pankration (bugünkü qaydasız döyüşə bənzər idman növü) üzrə olimpiya çempionu olması barədə də məlumatlar vardır.

Platonun özünəqədərki filosoflardan – Pifaqordan, Heraklitdən, Parmeniddən və nəhayət müəllimi Sokratdan təsirləndiyi bəllidir; sadalanan filosofların əsərləri bu günümüzə tam şəkildə gəlib çatmamış, kiçik parçaları və fraqmentləri qorunub saxlanmışdır, ancaq Platonun, demək olar, bütün əsərləri bu günümüzə gəlib çatmış və özünəqədərki çoxlu sayda filosofların başlıca ideyalarını öyrənmək baxımından etibarlı mənbə rolunu oynamaqdadır. Görkəmli ingilis filosofu Bertran Rassel özünün məşhur "Qərb fəlsəfəsinin tarixi" kitabında Platonun fəlsəfi baxışlarının formalaşmasını belə təsvir edir:

"Ümumi şəkildə baxılarsa, Platona Pifaqor, Parmenid, Heraklit və Sokrat təsir göstərmişlər.

Pifaqordan (ola bilsin, Sokratın vasitəsilə), Platon onun fəlsəfəsinə dini istiqamət verən orfik elementləri, ölümsüzlüyə və o biri dünyanın varlığına inamı, kahinliyə uyğun təhkiyə tərzini (bu onun mağara barədəki əhvalatında çox aydın şəkildə duyulur), həmçinin, riyaziyyata olan güclü marağını, habelə, öz mühakimələrində intellektual və mistik təsəvvürlərin bir-biri ilə tamamilə qarışdırılmasını əxz etmişdir.

Platon Parmeniddən, reallığın əbədi və zamandan asılı olmadığını, həmçinin, istənilən dəyişilmənin, məntiqi nöqteyi-nəzərdən, illüziya olduğu barədə ideyaları miras olaraq götürmüşdür.

Platon Heraklitdən, insan duyğularından asılı olan dünyada daimi olan heç nəyin mövcud olmadığı ideyasını mənimsəmişdir. Bu ideyanı Parmenidin konsepsiyası ilə birləşdirən Platon belə bir nəticəyə gəlib çıxır ki, biliklər duyğu orqanları vasitəsilə qazanıla bilməz, onun əldə edilməsi yalnız ağıl vasitəsilə mümkündür. Bu baxış, bütünlüklə, pifaqorçuluqla da uzlaşır.

Çox güman ki, Platon Sokratdan, etik problemlərə maraq göstərməyi, həmçinin, dünyanın mövcudluq səbəbini mexaniki cəhətlərlə deyil, teoloji prinsiplər əsasında axtarmağı mənimsəmişdi. Belə ki, "xeyir" ideyası Platonun fəlsəfəsində Sokrata qədərki filosoflara nisbətən çox mühüm yer tutur və bu cəhəti Sokratın ona təsir göstərməsi faktı ilə izah etməmək çox çətindir".

Platonun ilk gəncliyində şeir yazmaq texnikasına yüksək səviyyədə yiyələndiyi və bir müddət Afina ədəbi mühitində yaxşı qarşılanan şeirlər yazdığı da bəllidir, ancaq o sonradan şairlikdən uzaqlaşmış, ömrünü fəlsəfəyə həsr etməyə qərar vermişdi. Platonun ilk fəlsəfə müəllimi Heraklit fəlsəfəsinin ardıcılı olan Kratil idi. Ancaq çox keçmədən Sokratla tanış olan Platon, bütünlüklə onun fəlsəfi təliminə bağlanmışdır və təsadüfi deyildir ki, sevimli müəllimi Sokratı, az qala bütün fəlsəfi dialoqlarının baş qəhrəmanına çevirmişdir.

Platon sonradan platonçuluq adlanan fəlsəfi cərəyanın banisi və Qərb dünyasında ilk ali təhsil müəssisəsi olan Platon Akademiyasının ya-

radıcısı kimi də məşhurdur. O özündən sonra qoyub getdiyi böyük fəlsəfi irsi ilə, insanlıq tarixinə çox mühüm və güclü təsir etmiş dahi mütəfəkkirlərin sırasında ön yerlərdən birini tutur. Bu baxımdan, bizim eranın başlanğıcında meydana gələn və birbaşa platonçuluqdan qaynaqlanan neoplatonçuluğun, xristianlığın və ümumiyyətlə qərb təfəkkürünün inkişafında, həmçinin, dolayısı ilə müasir qərb elminin və ictimai fikrinin təşəkkülündə çox böyük rolu olmuşdur.

Platon yazılı dialoqların ilk yaradıcısı kimi tanınmaqla yanaşı, həm də, fəlsəfi araşdırmalara dialektik sorğulama metodunun tətbiqi ilə də məşhurdur. Fəlsəfi fikrə gətirdiyi çoxlu yeniliklərlə bərabər, Platon həm də, qərb siyasi fəlsəfəsinin banisi sayılır. Platonun bizim eradan öncə 360-cı ildə yazdığı “Dövlət” əsəri məhz siyasi fəlsəfənin yaranmasında ilk addım hesab edilir.

Yunan fəlsəfi, elmi və ümumiyyətlə ictimai fikri, Platona qədər böyük bir inkişaf yolu keçmişdi. Dəniz yolunun açılması ilə görüş dairəsini genişləndirən yunanlar, o dövrün Misir, Babil, Persiya və dolayısı ilə Hindistan kimi böyük mədəniyyət qurucuları olan ölkələrinin yaratdığı zəngin mirasla yaxından tanış olmuş və mənimsədikləri bu biliklərin təməli üzərində özünəməxsus bir elmi və fəlsəfi sistem qura bilmişdilər. Təsadüfi deyil ki, Platona qədər və ondan sonra, o vaxtın yunan şəhər-dövlətlərində çoxsaylı, müxtəlif fəlsəfi məktəblər yaranmış və öz ətrafında böyük sayda tərəfdarlar toplaya bilmişdi.

Platonun “Dövlət” əsəri fəlsəfi fikir tarixində bu mövzuda yazılan ilk əsər olsa da, ancaq onun meydana gəlməsi yunan fəlsəfi məktəblərinə xas olan mühüm bir cəhətdən qaynaqlanırdı. Belə ki, Platondan 150 il öncə yaşamış, yaratdığı pifaqorçuluq fəlsəfi məktəbi uzun illər boyunca yaşamaqda davam etmiş Pifaqor, ilk dəfə, öz fəlsəfi təlimi əsasında dövlət yaratmağa cəhd göstərmişdi. Pifaqor o vaxtlar Qərbi Yunanıstan adlanan indiki İtaliya ərazisindəki Kroton şəhərində, öz şagirdləri ilə birgə, dövlət qurmağa cəhd etmiş, ancaq qurduğu bu yeni dövlət bir neçə il sonra yerli və xarici mürtəce qüvvələrin müdaxiləsi ilə süquta uğramış və deyilənə görə, bu vaxt çoxlu sayda pifaqorçu amansızlıqla öldürülmüş, Pifaqorun özü isə çox böyük çətinliklə ölümdən qurtula bilmişdi. Elə Platonun ya-

şadığı dövrdə də, filosofların güclü təsiri altında olan hökmdarların idarə etdiyi kiçik şəhər-dövlətlər vardı, misal üçün, Siciliya və Cənubi İtaliyaya səyahət edən Platon müasir Taranto şəhərinin yerində olan ovaxtkı Taras şəhərində siyasi hakimiyyətin pifaqorçu Arxitin güclü təsiri altında olduğunu müşahidə etmişdi, həmçinin, bu bölgədə yerləşən digər şəhər-dövlətlərin bir çoxunda da, filosofların yerli hakimiyyətə güclü təsiri vardı. Platonun özünün də, şagirdləri ilə birlikdə, Sirakuzda dövləti yenidən qurmaq cəhdi olmuş, ancaq Sirakuzla Karfagen arasında davam edən amansız və dağıdıcı müharibə səbəbindən onun bu təşəbbüsü uğursuzluqla qurtarmışdı. Yaxud, Platonun ana tərəfdən ulu babası olmuş Solonun Afina üçün qanunlar tərtib etməsi, Likurqun Spartanın dövlət quruluşunu müəyyən edən qaydalar yaratması, habelə, digər yunan şəhər-dövlətləri üçün də, bu praktikanın yayılması, dövlətin filosoflar və müdrik şəxslər tərəfindən idarə olunması fikrinin möhkəmlənməsinə səbəb olmuşdu. Nəhayət, Platonun doğma şəhəri Afina ilə daimi münaqişədə olan Sparta şəhər-dövlətinin hərbi qüdrəti və əhalisinin sağlam həyat tərzi, özünəməxsus ictimai quruluşu, vətəndaşların şəxsi həyatını nizamlayan sərt qanunları ilə tanışlıq da Platonun dövlət quruculuğu sahəsindəki fikirlərinə güclü təsir etmişdi.

Platonun bir sıra ideyalarının onun sosial mənşəyi və ictimai əlaqələri ilə bağlı olduğu aydın görünür. Onun yeniyetməliyi və gəncliyi, vətəni Afina şəhər-dövlətinin Pelopennes müharibəsində Sparta dövləti tərəfindən çox ağır məğlubiyyətə düçar olduğu dövrə təsadüf edir. Sosial mənşəyinə görə, demokratiyaya mənfi münasibət bəsləyən və Afinanın ağır məğlubiyyətinin səbəbini demokratiyada görən aristokratik azlığa mənsub olması, Platonun dövlət quruluşları sırasında demokratik dövlətə olduqca pis münasibət göstərməsinin səbəblərindən biridir. İkinci səbəb kimi, Platonun böyük bir sevgi ilə bağlandığı müəllimi Sokratın Afina demokratiyasının yaratdığı məhkəmədə, tam demokratik şəkildə keçirilən səsvermə yolu ilə, ölümə məhkum edilməsini göstərmək olar (müasirlərinin verdiyi məlumata görə, Sokrata edam hökmü verilməsindən sonra Platon ağır sarsıntı keçirmiş, uzun müddət yataq xəstəsi olmuşdur). Bütün bunlar və Spartanın Afina üzərində qələbəsi, təbii ki,

Platonun Spartaya xas olan dövlət quruluşuna rəğbət bəsləməsinə gətirib çıxarmışdı. Bu baxımdan, Platonun ilk gənclik illərinə təsadüf edən dövrdə, Afinadakı demokratik qüvvələrin təqdiri ilə, hakimiyyəti "Otuz tiran" adlanan qrupun ələ keçirməsi və böyük azğınlıqlar törətməsi də Platona çox güclü təsir göstərmişdir. Platonun tiranlığa nifrəti o qədər böyük idi ki, yeraltı axirət dünyası sayılan Aiddə, bütün günahkar insan ruhlarının ağır cəza və sınaqlardan keçərək bağışlana biləcəyini desə də, yalnız ən qatı cinayətkarların və tiranların ruhunun heç bir halda bəraət almadığını və əbədi olaraq əzab çəkmək üçün Aidin Tartar deyilən çıxılmaz uçurumuna atıldığını və orada əbədi əzablara məhkum olunduğunu bildirirdi.

Fəlsəfi dialoqlarını bədii vasitələrin köməyi ilə qurmağa çalışan Platon "Dövlət" əsərində də, bu adətinə sadiq qalır. Sokratın, tanrıların şərəfinə keçirilən təntənəli mərasimə tamaşa etmək üçün getdiyi məkanda qarşılaşdığı köhnə tanışları ilə başlayan söhbəti "ədalətliliyin nə olması" ilə bağlı sualın araşdırılmasına gəlib çıxır və əslində etik sahəyə aid olan bu problemin araşdırılması getdikcə genişlənərək, dövlət və onun əslində necə qurulmalı olması problemini qarşıya qoyur. Söhbətin gedişində, Platon özünə xas olan ustalıqla, həmsöhbətləri tərəfindən özünü "dalana dirəyən" suallar qoyur və onların hər birini dialektik sorğulama metodu ilə cavablandırmağa çalışır. Beləliklə də, söhbətin mövzu dairəsi getdikcə genişlənir və dövlət quruluşları ilə insan psixologiyası arasındakı əlaqələr ön plana çıxaraq, aparıcı xəttə çevrilir. Bu mənada, Platon insanın yaşadığı dünyadakı fəaliyyəti ilə bağlı problemləri araşdırmaqla qalmayıb, onun axirət dünyası ilə bağlı həyatını da aydınlaşdırmağa və bu məsələni irəli sürdüyü mistik ideyalarla həll etməyə çalışır.

Öncə, həmsöhbətlərinə ədalətin bütünlüklə bərqərar olacağı dövləti xəyalən, "sıfırdan başlayaraq" qurmağı təklif edən Sokrat, dövlətin yaranmasında ilkin mərhələni cəmiyyətdə yaranmış əmək bölgüsü ilə şərtləndirir. Daha sonra, dövlətə qarşı xarici müdaxilələrin ola biləcəyini xatırladıb əmək bölgüsündə hərbçilərə və ya dövlətin keşikçilərinə də yer ayırır, bu mövzunun inkişafı gedişində isə, dövlət idarəçiliyinin və idarəçilər təbəqəsinin müəyyən edilməsinə gəlib çıxır. Dövlət ideyasının daha yaxşı anlaşılması üçün Platon onun tarixi inkişaf yoluna diqqət yetirir

və Aristokratiya (ἀριστοκρατία), Timokratiya (τῑμοκρᾰτία), Oliqarxiya (ὀλιγαρχία), Demokratiya (δημοκρατία) kimi dövlət quruluşlarını misal göstərərək, onların hər birinin təşəkkülü və sonrakı taleyi barədə ətraflı danışır. Platonun fikrincə, ideal dövlət ədalətin tam şəkildə ifadə edilməsi əsasında qurula bilər və o, araşdırdığı dövlət quruluşlarından heç birinin bu tələbə cavab vermədiyini bildirir. Bu baxımdan, örnək olaraq verilən dövlət quruluşları ilə müasir dünyamızdakı dövlət tipləri arasında maraqlı paralellər aparmaq mümkündür və əsərin bu cəhəti ilə müasir oxucu üçün maraqlı olacağını demək olar.

Maraqlıdır ki, Platon insan psixologiyası ilə ictimai hadisələr arasındakı əlaqələrdən də söz açır və dövlət quruluşlarının təbiəti ilə, onlarda yaşayan insanların xüsusiyyətləri arasında birbaşa uyğunluğun olması ilə bağlı əyani misallar gətirir. İctimai şüur formalarının araşdırılmasına xüsusi diqqət yetirən Platon, poeziyanın, incəsənətin, həmçinin, fəlsəfənin dövlət həyatında və vətəndaşların dünyagörüşü və tərbiyəsində rolunu da araşdırır və bu prosesin gedişində insan psixologiyasının incəlikləri barədə maraqlı fikirlər söyləyir. Bu baxımdan, Platonun "Mağara məhbusları" adlana biləcək pritçası və yuxugörmələr barədə fikirləri çox maraqlıdır. Birincidə Platon, insan idrakının məna və təzahür arasındakı gəzişmələrinə işıq salır, yuxugörmələrlə bağlı söhbətində isə, sonradan Ziqmund Freyd tərəfindən sistemləşdirilərək nəzəri təlim şəklinə salınmış müddəaların bir çoxunu işlənməyə hazır "xammal" və ya "yarımfabrikatlar" şəklində ortaya qoyur. Ümumiyyətlə desək, Platonun bütün əsərlərində olduğu kimi, bu əsərində də, diqqətli oxucu bir sıra müasir elmlərin ilkin rüşeymlərini müşahidə edə bilər.

Araşdırmaların gedişində Platon, filosofların idarə etməli olduğu ideoloji-teokratik-totalitar dövlət modelinə üstünlük verməyə gəlib çıxır, elitar təbəqənin şəxsində əmlak bərabərliyinə və hətta, qadınların və uşaqların ümumiliyinə əsaslanan bir cəmiyyət qurulmasını ən doğru addım hesab edir. Həmçinin, yuxarıda qeyd edildiyi kimi, intellektual mühakimələrlə mistik mülahizələri birləşdirməyi sevən Platon, insanın daha çox axirətdə, özü üzərində qurulacaq məhkəməyə hazırlaşmalı olduğunu, onun həyatının başlıca məqsədi kimi xarakterizə edir. Bu baxımdan,

Platonun təklif etdiyi ideal dövlət modelinin sonradan yaranan teokratik dövlətlərin ilham mənbəyinə çevrildiyini də söyləmək mümkündür. Bununla bağlı, Bertran Rasselin bu fikri çox düşündürücüdür: "Həmişə, Platonu anlamaq deyil, onu tərifləmək düzgün sayılmışdır. Bu bütün böyük insanların ümumi taleyidir".

Platonun "Dövlət" əsəri, meydana çıxmasından ötən 2500 ilə yaxın müddət ərzində, ən çox oxunan kitablar sırasında yer almışdır. Kitabın yalnız filosoflar, tarixçilər və müxtəlif elm sahəsi üzrə mütəxəssislər tərəfindən deyil, həmçinin, geniş oxucu kütləsi tərəfindən də, maraqla oxunduğunu desək, yanılmarıq. Dialoqlarda insan, dövlət, ictimai quruluş, insanın gerçək dünyadakı yeri və gələcək taleyi barədə qoyulmuş fundamental suallar və bir çoxunun bu gün də öz həllini tapmadığı ictimai-siyasi və mənəvi problemlər ətrafında açılan maraqlı müzakirəsi, istər-istəməz, kimliyindən asılı olmayaraq istənilən oxucu üçün maraqlı bir mövzuya çevrilir. Cəlbedici bədii üslubda qələmə alınmış və oxucunu daimi gərginlik içində saxlayan bir süjet üzərində qurulmuş bu əsər oxucunu yalnız yazılanları oxumaqla kifayətlənməyib, həm də, qoyulan suallar üzərində gərgin şəkildə düşünməyə sövq etməsi ilə də, müasir oxucu üçün maraqlı və faydalı hesab edilə bilər.

***Araz Gündüz***

**Platon**

# DÖVLƏT

**Sokrat**
**Qlavkon**
**Polemarx**
**Frasimax**
**Adimant**
**Kefal**

# BİRİNCİ KİTAB

**Sokrat.** Mən dünən Aristonun oğlu Qlavkonla Pireyə, ilahəyə ibadət etməyə getmişdim, həm də orada ona həsr edilmiş bayramı necə keçirdiklərinə baxmaq istəyirdim, – axı bunu indi birinci dəfə keçirirlər. Məncə, yerli əhalinin təntənəli yürüşü çox gözəl idi, ancaq frakiyalıların bayram yürüşü də bundan geri qalmırdı.[1] Biz ibadət etdik, bayram tədbirinə tamaşa edəndən sonra geriyə, şəhərə yollandıq.

Uzaqdan, bizim şəhərə qayıtdığımızı görən Kefalın oğlu Polemarx qulluqçusuna tapşırır ki, bizə çatıb onu gözləməyimizi xahiş etdiyini çatdırsın. Qulluqçu arxadan, plaşıma toxunub dedi:

– Polemarx sizdən onu gözləməyinizi xahiş edir.

Mən arxaya dönüb onun harada olduğunu soruşdum.

– Bax odur, gəlir, xahiş edirəm, onu gözləyəsiniz.

– Nə olar, gözləyərik, – Qlavkon dedi.

Bir az keçmiş Polemarx gəlib çıxdı, onun yanında Qlavkonun qardaşı Adimant, Nikiyin oğlu Nikerat və təntənəli yürüş iştirakçılarından olduğu bilinən, tanımadığımız bir neçə nəfər də vardı.

Polemarx dedi:

– Sokrat, mənə elə gəlir, siz şəhərə qayıtmağa tələsirsiniz.

– Düz tapmısan, – mən dedim.

– Sən məgər bizim burada neçə nəfər olduğumuzu görmürsənmi?

– Bunu necə görməmək olar!

---

[1] Burada yunan ilahəsi Artemida ilə eyniləşdirilən frakiya ilahəsi Bendidaya həsr olunmuş bayram yürüşü nəzərdə tutulur. Pireydə bu ilahənin şərəfinə məbəd vardı.